# Azərbaycan Respublikasının Nazirlər Kabineti

## QƏRAR

**№ 412** **Bakı şəhəri, 7 sentyabr 2024-cü il**

# Bakı Slavyan Universitetinin yenidən təşkili və Nizamnaməsinin təsdiq edilməsi haqqında

"Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanının 2.12.1-ci yarımbəndinə uyğun olaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Bakı Slavyan Universiteti Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyində publik hüquqi şəxs statusuna malik olan Bakı Slavyan Universitetinə çevrilmə yolu ilə yenidən təşkil edilsin.

2. "Bakı Slavyan Universitetinin Nizamnaməsi" təsdiq edilsin (əlavə olunur).

3. Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi bu Qərarın qüvvəyə mindiyi tarixdən 3 (üç) gün müddətində Bakı Slavyan Universitetinin "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq dövlət qeydiyyatına alınması üçün zəruri tədbirlərin görülməsini təmin etsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

*Qərarın əlavəsi ilə* *www.azerbaijan-news.az və* *nk.gov.az saytında tanış ola bilərsiniz.*

Azərbaycan.- 2024.- 11 sentyabr (№ 197).- S.6.